Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# AYLIQ BÜLLETEN 01.11.2019



## DAMĞALAMANIN ƏLİLLİYİ OLAN UŞAQLARA MƏNFİ TƏSİRİ BÖYÜKDÜR

Uşağın sağlamlıq vəziyyətini və ya diaqnozunu bilmək ona məktəbdə lazımi dəstəyi almaq baxımından faydalıdır. Araşdırmalar göstərir ki, damğalama uşağın məktəb həyatına mənfi təsir edir. Çünki diaqnoz çox zaman ətraf mühitin və sosial proseslərin yaratdığı əngəlləri nəzərə almır.

Əlilliyi olan uşağı onun tibbi diaqnozu əsasında damğaladıqda, bu, elə bir fikir formalaşdırır ki, eyni diaqnozlu uşaqların hamısına eyni dəstəyin təmin edilməsi kifayət edir. Əsas məsələlərdən biri budur ki, eyni diaqnoza malik iki uşaq bir-birindən fərqlənirlər. Bu səbəbdən də onlar fərqli dəstəyə ehtiyac duya bilərlər.

Damğalama insanları o fikrə gətirir ki, şəxsin malik olduğu məhdudiyyət sabitdir və dəyişə bilməz. Bu isə insanın malik olduğu məhdudiyyətlə təsvir olunmasına gətirib çıxarır və məhdudiyyətlərin zamanla dəyişə biləcəyini nəzərə almır. Biz hamımız yaşlandıqca müəyyən məhdudiyyətlər qazana bilərik. Yəni məhdudiyyət nisbi və ötəri bir anlayışdır.

Bundan başqa, damğalama şəxsin güclü cəhətlərini və istedadını nəzərə almır. Bütün uşaqlar düzgün həvəsləndirmə və dəstəklə məktəbdə iştirak edə, qarşılıqlı ünsiyyətdə ola, öyrənə və mühitə uyğunlaşa bilərlər. Şəxsin malik olduğu məhdudiyyətə görə damğalanması bizi onların qabiliyyəti, istedadı və istəklərindən yayındıra bilər. Damğalama uşağa qarşı gözləntilərin aşağı düşməsinə səbəb olur. Müəllimlərin uşağı həddən

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

artıq qoruması da onu bezdirə və həvəsdən sala bilər.

Damğalama belə bir fikrin yaranmasına səbəb olur ki, əlilliyi olan uşaqlar xüsusi metodlarla və xüsusi resurslarla öyrədilir. Bunun üçün isə əlilliyi olan uşaqlar öz həmyaşıdlarından ayrılaraq xüsusi siniflərdə təlimə cəlb olunmalıdırlar. Bu yanaşma sadəcə əlilliyi olan uşaqları təcrid etmir, həm də onları sosial bacarıqların inkişafı üçün zəruri olan birgə sinif məşğələlərindən məhrum edir, ən əsası isə əlilliyi olan uşaqlara qarşı qınaq yaradır.

Bununla yanaşı, sinifdə uşaqlara fərdi dəstək göstərmək üçün köməkçi müəllimin, yaxud başqa mütəxəssisin olması sinifdə uşaqlar arasında qarşılıqlı ünsiyyətə və sosial təmasa mane olur. Sinifdə köməkçi müəllimin, yaxud mütəxəssisin olması o halda məqbul sayıla bilər ki, həmin şəxs tədrisin bütün uşaqlara uyğunlaşdırılmasına kömək etsin və onların sosiallaşmasına mane olmasın.

Damğalanmanın əlilliyi olan uşaqlara mənfi təsirini ümumiləşdirərək, aşağıdakı qənaətə gəlmək olar:

- Ətraf mühitdəki və sosial proseslərdəki maneələri nəzərə almır;
- Tibbi diaqnozu eyni olan hər kəsə eyni dəstəyin göstərilməsi fikrinə gətirib çıxarır;
- Şəxsin malik olduğu əlilliyin sabit və dəyişməz bir xüsusiyyət olduğunu vurğulayır;
- İlk olaraq şəxsi və onun əliliyini ön plana çəkir.



## SÖZLƏRİN TƏSİRİ BÖYÜKDÜR!

Əlilliklə bağlı düzgün ifadələrin istifadəsi əlilliyi olan insanlara qarşı münasibətin formalaşmasında mühüm rol oynayır. İstifadə etdiyimiz ifadələr vasitəsilə əlilliyi olan şəxslərin təsviri ya inklüzivliyin təşviqinə xidmət edə ya da əksinə cəmiyyətdə neqativ stereotiplərin yaranmasına səbəb ola bilər.

Düzgün ifadələrin istifadəsi ilə bağlı aşağıdakı göstərişlərə diqqət yetirin:

| İSTİFADƏ ETMƏYİN | İSTİFADƏ EDİN |
|---|---|
| ✗ ƏLİL, QÜSURLU, XƏSTƏ, MƏHDUDİYYƏTLİ | ✓ ƏLİLLİYİ OLAN ŞƏXS |
| ✗ NORMAL/SAĞLAM İNSAN | ✓ ƏLİLLİYİ OLMAYAN ŞƏXS |
| ✗ ƏQLİ MƏHDUDİYYƏTLİ, ƏQLİ QÜSURLU, ƏQLİ GERİLİYİ OLAN, DEFEKTİV, XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN | ✓ İNTELLEKTUAL, KOQNİTİV VƏ İNKİŞAF ƏLİLLİYİ OLAN ŞƏXS |
| ✗ KOR, GÖRMƏ QÜSURLU | ✓ GÖRMƏ ƏLİLLİYİ OLAN ŞƏXS |
| ✗ KAR, LAL, EŞİTMƏ QÜSURLU | ✓ EŞİTMƏ ƏLİLLİYİ OLAN ŞƏXS |
| ✗ ÖYRƏNMƏ ƏNGƏLLİ | ✓ ÖYRƏNMƏ ƏLİLLİYİ OLAN ŞƏXS |



Elman Süleymanov




Orxan Əliyev

## *Əlilliyə qarşı mövcud stiqmaların aradan qaldırılmasına yönəlik silsilə tədbirlər keçirilib*

*2019-cu ilin sentyabr ayında Avropa İttifaqinin maliyyə dəstəyi və Təhsil Nazirliyinin birgə əməkdaşlığı ilə, RİİB və UNICEF tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti və Sumqayıt Dövlət Universitetinin tələbələrinin iştirakı ilə əlillikla bağlı mövcud stiqma və strereotiplər və inklüziv təhsil mövzusunda tədbirlər həyata keçirilib.*

*Tədbirlərdə çıxış edən əlilliyi olan gənclər inklüziv təhsildən yararlanmanın onların həyatında müsbət rol oynadığından, eləcə də cəmiyyətdə əlilliyi olan şəxslərə qarşı tolerant yanaşmanın formalaşmasını məhz inklüziv təhsil mühitindən başlaması ilə əlaqələndirdilər. Onlar həmçinin əlilliyi olan gənclərin həyatda uğurunun əsas faktorlarından biri kimi ailədən gələn mənəvi dəstəyi də qeyd edirlər.*

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

# ƏLİLLİYİN MODELLƏRİ

## ƏLİLLİYİN TİBBİ MODELİ

Əlilliyin ənənəvi tibbi modeli fərdə köklənir, onu problemi olan insan kimi təsvir edir. Bu yanaşma şəxsin cəmiyyətdə fəal olmamasına səbəb olan ətraf amilləri və ya ətrafdakı əngəlləri nəzərə almır. Spesifik olaraq inklüziv təhsil kontekstində isə ənənəvi tibbi yanaşma və ya fərdi yanaşma əlilliyi olan uşaqların məktəbdə öyrənmək və təlim prosesində səmərəli şəkildə iştirak etmək imkanlarını məhdudlaşdırır. Əlilliyə tibbi və ya fərdi yanaşma insan hüquqlarına əsaslanan yanaşmanın dinamikliyini və kompleks xarakterini əks etdirmir, çünki o, bizim fərdə onun tibbi vəziyyəti/diaqnozu əsasında baxmağımıza gətirib çıxarır. Nəticədə biz fərdi malik olduğu əlilliyə görə damğalayırıq. Mühitdəki maneələri aradan qaldırmaq səvəzinə, problemi fərdlərin özündə görürük




Əlilliyin Tibbi Modeli

## ƏLİLLİYİN SOSİAL MODELİ

Əlilliyin tibbi modeli ilə yanaşı sosial modeli də mövcuddur və müsair dövrdə aşağıdakı səbəblərdən sosial modelin zəruriliyi özünü daha qabarıq göstərir:

- Sadəcə əlilliyi olan uşaqlar deyil, bir çox uşaqlar təhsildə çətinliklərlə üzləşirlər;
- Təhsil prosesində qarşıya çıxan çətinliklər müəllimlərə təlim strategiyalarını təkmilləşdirmələri üçün təkan verir;
- Bu təkmilləşdirmələr bütün uşaqlar üçün təlim şəraitinin yaxşılaşdırılmasına gətirib çıxara bilər;
- Əlilliyi olan uşaqlarla fərdi surətdə məşğul olmaq üçün mütəxəssislər cəlb etmək əvəzinə müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılmasına dəstək göstərmək lazımdır.




Əlilliyin Sosial Modeli

Nəzərə almaq lazımdır ki, əlilliyi olan uşaqların təhsilə çıxışını və iştirakını məhdudlaşdıran maneələri aradan qaldırmaqla təhsil sistemini hamı üçün əlçatan etmiş oluruq. İnklüziv məktəb hamı üçün yaxşı və keyfiyyətli məktəb deməkdir.

Layihə
Avropa İttifaqı
tərəfindən
maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# FUNKSİONALLIQ, ƏLİLLİK VƏ SAĞLAMLIĞIN BEYNƏLXALQ TƏSNİFATI




Dünyada əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunmasının dəstəklənməsi ilə bağlı təcrübə və sistemlər mütəmadi olaraq dəyişikliklərə məruz qalır. Bunlardan biri Ümumdünya Səhiyyə Təşkilatının Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından (qısa olaraq FBT) qlobal şəkildə istifadəyə keçiddir. Bu keçid xəstəliklərin insanların həyatına təsirlərini anlamaq zərurətinin yarandığı 1970-ci ildən etibarən başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı bu təsnifatı 2001-ci ilin may ayında rəsmi şəkildə təsdiq etdi və üzv dövlətləri onu müvafiq olaraq öz tədqiqatlarında və hesabatlarında tətbiq etməyə çağırdı.

FBT psixo-sosial modelə əsaslanır. O, insan sağlamlığının və rifahının bütün aspektlərini, o cümlədən faydalı münasibətləri və yüksək keyfiyyətli təhsil almağı əhatə edir. Prinsip etibarilə, o, özündə tibbi və sosial modeli birləşdirən iki əsas hissədən ibarətdir:

1-ci hissə: funksiyalar və əlillik – orqanizmin funksiya və quruluş komponenti, aktivlik və iştirak komponenti;

2-ci hissə: kontekstual amillər – ətraf mühit faktoru və şəxsi faktor. Xüsusi vəziyyətlərdə funksiyalara təsir göstərən xarici (ətraf mühit) və daxili (şəxsi) amilləri özündə əks etdirir

Həm BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasında, həm də FBT-də verilən təriflərdə əlilliyin kontekstual və ətraf mühit faktorlarının önəmi vurğulanır. Bu, diqqətin əlilliyin səbəblərindən onun təsirlərinə yönəlməsini göstərir. Buna görə də əlillik kompleks fenomen kimi şərh edilir.

## Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı

Təhsil müasir həyatın tələb və ehtiyclarına mütənasib olaraq dinamik inkişaf edən bir sferadır. Qloballaşan və yenilənən dünyada yaşayan müasir insanın təhsil ehtiyacları da yenilənir və fərqlənir. Təhsilalanları rəqabətəqabil şəxsiyyət kimi yetişdirmək üçün təhsilverənlərin peşəkarlığının mütəmadi olaraq artırılması məhz bu zərurətdən irəli gəlir. Belə olan halda birmərhələləli fundamental pedaqoji təhsil çərçivəsində hazırlanmış kadrların statik bilik və bacarığı kifayət etmir. Odur ki, müəllim hazırlığı fasiləsiz bir proses kimi cərəyan etməlidir. Lakin ilkin pedaqoji təhsildən fərqli olaraq fasiləsiz pedaqoji təhsilin modern paradiqmalarına əsasən pedaqoji fəaliyyət müddətində kadrların peşəkar hazırlığı ənənəvi "mühazirə-seminar" formatından çıxarılmalı və bu proses təhsil müəssisələrinin özündə real təcrübəyə istinad edən ixtisasartırma formatına salınmalıdır. Yəni gündəlik fəaliyyət zamanı müəllimlərin qarşılaşdığı çətinliklər əsas götürülərək onlara "mentorluq", "kouçinq", "birgə əməkdaşlıq" və s. üsullarla dəstək verilməli, bu yolla onların fasiləsiz və praktik peşəkar inkişafı təmin edilməlidir. Təcrübə göstərir ki, bu yanaşma ilə müəllimlərə unudulan nəzəri biliklər deyil, əməli bacarıqlar vermək mümkündür.

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.



# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNDƏ İNKLÜZİV TƏHSİL MƏRKƏZİNİN AÇILIŞI OLUB

***29 oktyabr 2019-cu il tarixində Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetində İnklüziv Təhsil Mərkəzinin açılışı olub.***

Bakı şəhərində, Şamaxı, Cəlilabad, Ağcabədi, Quba və Şəki rayonlarında ADPU-nun nəzdində təsis edilən bu mərkəzlərin məqsədi orta və ali təhsil müəssisələrində çalışan müəllimlər arasında vasitəçi olmaqla onları inklüziv təhsil üzrə bilik və təcrübə mübadiləsi aparmağa, əməkdaşlıq etməyə təşviq etmək və fəaliyyət əsaslı ixtisasartırma ənənəsinin əsasını qoymaqla müəllimlərin əməli peşəkar inkişafına töhfə verməkdir. Müxtəlif tədris resursları ilə təmin olunan mərkəzlərin fəaliyyət istiqamətlərinə inklüziv təhsilin icrasında iştirak edən aidiyyatı hədəf qruplarının təlimləndirilməsi, inklüziv sinif təcrübələrinin həyata keçirilməsində müəllimlərə mentorluq edilməsi və inklüziv dəyərlərin yayılması üçün icma ilə əməkdaşlıq daxildir.

Tədbir zamanı www.inkluzivtehsil.az portalının təqdimatı da olub.





## Əlavə məlumat almaq üçün əlaqə vasitələri

+99412 505 01 50

info@ie-rt.az

@inkluzivtehsilAzerbaycan

@inkluzivtehsil